**Heydər Əlirza ƏLİYEV**
Qərbi Kaspi Universiteti Magistr
E-mail: aliyevheyderr@gamil.com

# AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARINDA AQRAR SAHİBKARLIĞIN İNKİŞAF İMKANLARI

**Xülasə**

Azərbaycan Respublikası regionlarında aqrar sahibkarlığın inkişaf etdirilməsi ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsində və ölkə iqtisadiyyatının genişləndirilməsində böyük əhəmiyyətə malikdir. Ölkədə aqrar sahənin inkişaf etdirilməsi geniş torpaq resusları, əlverişli iqlim şəraiti və dövlət tərəfindən göstərilən dəstək nəticəsində geniş imkanlar yaradır.

Son dövrlərdə ölkədə kənd təsərrüfatı sahəsinin inkişaf etdirilməsi üçün bəzi təşfiq mexanizmləri və dövlət proqramları təşkil edilmişdir. Güzəştli kreditlər, dövlət tərəfindən subsidiyalar, suvarma sistemlərinin müasirləşdirilməsi, müasir texnikaların tətbiq edilməsi, vergi güzəştləri və.s tədbirlər bu sektorun inkişafına təkan verir. Həmçinin, regionlarda aqroparklarda yaradılmışdır ki, bu da daha innovativ inkişaf üçün imkan yaradır.

Atılan bu addımlarla yanaşı, bu sahədə innovasiyanın tətbiq edilməsi, maliyyə resuslarına çıxışın daha da asanlaşdırılması və torpaq, su ehtiyyatlarından səmərli istifadəsi kimi məsələlərin daha da inkişafı lazımdır.

Ölkədə bu sahənin inkişafı üçün rəqəmsal sistemlərin inkişafı, yeni texnologiyaların tətbiqi, ixrac potensialının genişləndirilməsi və.s addımların atılması vacibdir.

**Açar sözlər**: İqtisadiyyat, kənd təsərrüfatı, regional siyasət, inkişaf istiqamətləri

**UOT:** 338
**JEL:** L7
**DOI:** https://doi.org/ 10.54414/ ETQF5843

## Giriş

Azərbaycan Respublikasının iqtisadiyyatının inkişafıda aqrar sektor əhəmiyyətli rola malikdir. Kənd təsərrüfatı sektoru tarixən ölkənin gəlir gətirən sahələrində biri olub. Hazırki dövrdə də qeri-neft sektorunun genişləndirilməsi və inkişafı, o cümlədən iqtisadiyyatın şaxələndirilməsi baxımından böyük rol oynayır. Regionlarda kənd təsərrüfatının inkişaf etdirilməsi rayonlarda insanların işlə təmin olunmasında, ərzaq təhükəsizliyinin təmin olunmasında və ölkə iqtisadiyyatının inkişafında əsas rol oynayır.

Respublikanın kənd təsərrüfatının inkişafı üçün kifayət qədər resuslar mövcuddur. Ölkənin şimal rayonlarında xüsusi ilə dağlı və dağətəyi bölgələrdə heyvandarlı, o cümlədən bağçılıq, aran rayonlarda pambıqçılıq, taxılçılıq və cənub regionlarda sitrus meyvələrinin istehsalı üçün münbit şərait mövcuddur.

Bu məqalədə Azərbaycan Respublikasında aqrar sahibkarlıq fəaliyyərinin inkişaf etdirilməsi üçün imkanlar, bu imkanların daha da genişləndirilməsi və yaranmış problemlər təhilil ediləcəkdir.Bu sahənin inkişafı və genişlədirilməsinin ölkə iqtisadiyyatında təsiri, istifadə oluna biləcək innovativ yollar, dövlət siyasəti və.s kimi məsələlər müəyyənləşdiriləcək.

## Azərbaycan Respublikası regionlarında aqrar sahibkarlığın inkişaf imkanları

Dövlət tərəfindən ölkədə aqrar sahədə sahibkarlıq fəaliyyətinin tənzimlənməsi üçün müəyyən inkişaf proqramları hazırlanmışdır. Bu proqrama əsasən sahibkarlıq fəaliyyətinin, xüsusi ilə kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişafı ilə bağlı təkliflər aqrar sahənin transfor-

masiyasına öz təsirini göstərəcəkdir. Ümumilikdə transformasiya prosesi ölkənin təsərrüfat həyatında böyük inkişafa və dəyişikliklərə gətirib çıxaracaqdır. Bunun əsas məqsədi ölkədə olan kiçik və orta sahibkarlıq subyektlərinin inkişafından istifadə etməklər milli kapitalın formalaşdırılmasıdır. Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün aqrar sahədə sahibkarlığın inkişafı vacibdir. Belə ki, ölkədə sahibkarlığın, xüsusi ilə də aqrar sahədə sahibklarığın inkişafı iş yerlərinin sayının artmasında, insanların qazancının çoxalmasında, ölkənin yerli məhsulların təmin olunmasında böyük rol oynayır.

Ölkədə kənd təsərrüfatının inkişafına ilə bağlı bəzi tədbirlər təşkil olunmuş və proqramlar qəbul edilmişdir. 2004-2008-ci il, 2009-2013-cu il, 2014-2018-ci illərdə qəbul olunmuş dövlət proqramları, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaqla təmin olunmasına dair Dövlət Proqramı” qəbul olunmuşdur. Bununla yanaşı “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı üzrə Dövlət Proqramı” dövlət dəstəyinin təzahür formasıdır. Ölkədə sanəyedən sonra ikinci əsas sahənin kənd təsərrüfatı olduğunu deyə bilərik. Bu sahəyə dövlət tərəfində xüsusi ilə son illərdə böyük dəstək vardır. Prezident İlham Əliyevin göstərişi ilə bu sahənin inkişafı üçün kənd təsərrüfatı ilə məşğul olan fermerlərə dövlət tərəfindən texnika ilə təmin olunması, maliyyə əlçatanlığının asanlaşdırılması eləcədə, cins mal-qara alınmasının daha əlçatan olması üçün addımalar atılmaışdır. Onu qeyd etmək lazımdır ki, son illərdə ərzaq təhlükəsizliyi ilə bağlı addımlar atılır ki, bunlara aqroparkların salınması, subsidiyaların verilməsi və.s göstərmək olar. [1,səh-6]

Ölkədə sənayeninin xammala, əhalinin isə kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsində aqrar bölmə böyük əhəmiyyət kəsb edir. Ölkədə emal sənayesinin genişlənməsi və inkişaf etməsi aqrar sahənin inkişafı ilə birbaşa bağlıdır.

“Azərbaycan Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”regional sahibkarlıq siyasətinin həyata keçirilməsində böyük rol oynayır. Bu Dövlət Proqramında demək olar bütün iqtisadi rayonların inkişafı nəzərdə tutulub. Proqramda qarşıya qoyulan əsas məqsəd ölkədə qeri-neft sektorunun, o cümlədən regionların balanslı və tarazı şəkildə inkişaf etdirilməsi, iqtisadiyyatın diversifikasiyalaşdırılması, insanların həyat səviyyəsinin və məşğulluğunun yaxşılaşdırılması, mövcud infrastrukturun yenidən qurulması və.s ibarət idi.

Hazırda Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsi üçün kifayət qədər əhəmiyyətli addımlar atılıb. Dövlət proqramlarının tətbiq edilməsi ilə ərzaq təhlükəsizliyinin təmin olunmasına nail olunmuşdur. Yeni heyvandarlıq komplekslərinin yaradılması, kənd təsərrüfatının intensiv şəkildə inkişafı, quşçuluq təsərrüfatının genişləndirilməsi və məhsulların saxlanılması üçün saxlanc yerlərinin qurulması bu sahənin daha da sürətli inkişaf etməsinə gətirib çıxarır. Əkin sahələrindən daha çox məhsul əldə etmək üçün sahələrin suvarılmasına xüsusi önəm verilməlidir. Bununla yanaşı artıq daha səmərəli suvarma həyata keçirilməsi üçün müasir tələblərə cavab verən suvarma sistemlərindən istifadə bu sahədə vacib məsələlərdəndir. Dövlət yeni suvarma və digər müasir kənd təsərrüfatı texnikalarının sahibkarlar və fermerlər üçün daha əlçatan edəcək addımlar atmaqadadır. Bunula da daha səmərəli fəaliyyət göstərməklə daha çox məhsul əldə etmək mümkün olacaqdır.

Sahibkarlığın inkişaf etdirilməsi üçün vacib olan məqamlardan biri də maliyyə əlçatanlığıdır. Dövlət bu məsələyə böyük əhəmiyyət verir və müəyyən güzəştlər tətbiq edir. 31 iyul 2018-ci ilə qədər Sahibkarlığa Kömək Milli Fondu sahibkarların güzəştli maliyyə vəsaitləri ilə təmin edib. Bu tarixdən isə qurumun fəaliyyəti təkmilləşdirilərək Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yaxınında Sahibkarlığın İnkişaf Fondu Publik hüquqi şəxsə çevrilmişdir. Son illər ərzində Sahibkarlığın İnkişaf Fondu

tərəfindən görülən işlərə nəzər yetirsək artan templə irəlilədiyini görmək mümkündür. Aşağıdakı cədvəldə bunu müşahidə edək:[2]

**Cədvəl 1.**

**Sahibkarlığın İnkişaf Fondu tərəfindən maliyyələşdirilmiş layihələr**

| Maliyyələşdirilmiş layihələr | | | | |
|---|---|---|---|---|
| Dinamika və təhlil | 2020-ci il | 2021-ci il | 2022-ci il | 2023-cü il |
| Layihələrin sayı(mln manat) | 908 | 1902 | 2726 | 3276 |
| Ümumi dəyəri(mln manat) | 245,4 | 287,7 | 399,4 | 459,9 |
| Kredit məbləği(mln manat) | 126,9 | 130,6 | 145,9 | 193,8 |
| Mikro,kiçik və orta sahibkarlar üçün(mln manat) | 108,8 | 115 | 143,4 | 176,6 |

Aqrar sahibkarlığın inkişaf etdirilməsi ölkədə qeri-neft sektorunu inkişafını sürətləndirməklə yanaşı, həm də regionlarda
,

o cümlədən qeyri-neft sektorunun inkişafını süətləndirmək mümkündür. Aşağıdakı tədbirləri görmək məqsədəmüvafiq olar:

1. Qeyri-neft sektorunun inkişafı ilə bağlı investisiya cəlb olunmasına dövlət tərəfindən dəstək verilməsi;
2. Regionlarda aqrar sahənin inkişafının sürətləndirilməsi üçün addımlar atılması, bu yolla regionların canlandırılması;
3. Qarışıq bazar iqtisadiyyatına daha çox önəm verilməli, dövlət və özəl sektorun birgə fəaliyyət proqramlarının işlənib hazırlanması;
4. Regionlar arasında əlaqələrdə iqtisadi optimallığın əldə olunması;

Son illərdə ölkədə sahibkarlığın çoxsaylı növləri ilə rastlaşmaq mümkündür. Risketmə imkanları yüksək, fəaliyyət sahəsi ilə fərqlənən və innovativ intellektual imkanlara sahib olan təbəqə fəaliyyət göstərir ki, bu da öz növbəsində rəqabət mühitinin yaranmasına gətirib çıxarır. Bildiyimiz kimi sahibkarlıq fəaliyyətinin başlıca məqsədlərində biri yüksək mənfəət əldə etməkdir. Sahibkarlar bazarın fəaliyyətini sürətli oyrənir, yeni ideyalar axtarırlar. Sahibkarlıq fəaliyyəti iqtisadiyyatın əsas faktorlarında biridir və iqtisadiyyatın böyüməsində və canlanmasında başlıca amillərdəndir. Son dövrlərdə sahibkarlara dövlət tərəfindən dəstəyin və güzəştlərin artması səbəbi ilə onların risk edə bilmə imkanları da artmışdır. Belə şəraitdə neft sektorundan sonra geniş imkanlar olan sahələrdən biri də kənd təsərrüfatı olduğu üçün onlar bu sahədə fəaliyyətə daha maraqlı yanaşırlar.

Dövlətin regional siyasətinin başlıca məqsədlərdən biri də dayanıqlı və hərtərfli inyeni iş yerlərinin yaradılmasına səbəb olacaqdır. Xarici investisiyaların cəlb olunması ilə iqtisadiyyatın digər sahələrinin

kişafın əldə edilməsidir. Bu məqsədin reallaşdırılması üçün kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi başlıca amillərdəndir. Ölkədə son dövrlərdə kənd təsərrüfatı ilə bağlı kombinatlar, aqrofirmalar, məhdud məsuliyyətli cəmiyyətlər və.s sayı artmaqdadır. Dövlət tərəfindən kənd təsərrüfatının inkişafı üçün subsidiyalar ayrır, güzəştli kreditlərin sayı artırılır, məhsulların saxlanması üçün soyuducularla təmin edir, kombinatlar tikilir və.s işlər görülür. [1,səh-53]

Regionların inkişafı çoxmeyarlı prosesdir. Regionların inkişaf etdirilməsinə daha yaxında nəzər yetirsən görə bilərik ki, onun məzmunu bir-birindən çox fərqlənir. Abşeron, Aran, Gəncə, Quba-Xaçmaz, Lənkəran, Dağlıq Şirvan və Bakı şəhərinin inkişafına nəzər yetirsək onların məzmun cəhətdən o cümlədən coğrafi vəziyyətinin, ixtisaslaşmasının, istehsal strukurunun bir-birindən kəskin fərqləndiyini görə bilərik.[3,səh-10]

Ölkəmiz kənd təsərrüfatı resusları nöqteyi nəzərdən kifayət qədər zəngindir. Xüsusi ilə Qarabağ zonasının kənd təsərrüfatına yararlı topaqları, iqlimi və.s bu sahənin inkişafı üçün əvəzsiz rol oynayır. Bu ərazilər işğal altına düşənə qədər, kənd təsərrüfatı, yeyinti, yüngül və digər sənaye sahələrinin inkişaf etdiyi region olmuşdur. 27 sentyabr 2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük müharibədə əldə olunmuş qələbə nəticəsində işğal altında olan torpaqlarımız azad oldu. Hazırda həmin ərazilərin yenidən qurulması, insanların öz yurdlarına qayıtması üçün şərait yaradılması, eləcədə bu əraziləri iqtisadi nöqteyi nəzərdən yenidən canlandırılması üçün dövlət tərəfindən mühüm addımlar atılmaqdadır. Bu ərazilərin yenidən bərpası zamanı "ağıllı kənd"

və “ağıllı şəhər” layihələrindən də istifadə nəzərdə tutulub.

Ölkə ərazisində olan torpaq sahələri ölkənin torpaq fondunu təşil edir. Bu torpaq sahələrini aşağıdakı kateqoriyalara bölmək mümkündür.

1. Yaşayış məntəqələri;
2. Kənd təsərrüfatı təyinatlıq torpaqlar;
3. Sənaye təyinatlı torpaqlar;
4. Xüsusi mühafizə olunan topaqlar;
5. Su fondu aid olan torpaqlar;
6. Meşə fonduna aid olan torpaqlar;
7. Dövlət və Bələdiyyəyə aid olan ehtiyat torpaqlar;[5, səh-105]

Kənd təsərrüfatının, xüsusi ilə də əkinçiliyin inkişafı üçün əkinə yaralı torpaqların olması böyük əhəmiyyətə malikdir. Kənd təsərrüfatı üçün yararlı torpaq payı 55.1%-dir. Belə torpaqlara əkin, çoxillik torpaqlar, yem yerləri, dincə qoyulmuş torpaqlar və.s daxildir. Azərbaycanda kənd təsərrüfatına yaralı torpaq sahələri aşağıdakı kimidir:

**Cədvəl 2.**

**Azərbaycan Respublikası ərazsində kənd təsərrüfatına yararlı torpaqlar.[4]**

| İllər | Kənd təsərrüfatına yararlı torpaqlar | Əkin yerləri | Dincı qoyulmuş torpaqlar | Çoxillik əkmələr | Biçənək və örüş-otlaq sahələri |
|---|---|---|---|---|---|
| 2020 | 4780,1 | 2045,2 | 39,2 | 272,7 | 2423,0 |
| 2021 | 4780,6 | 2049,8 | 39,2 | 274,1 | 2417,5 |
| 2022 | 4780,5 | 2052,8 | 39,1 | 273,6 | 2415,0 |
| 2023 | 4780,6 | 2037,4 | 54.3 | 273,5 | 2414,4 |

Ölkləni ərzaq və ekoloji təhlükələrdən qorumaq üçün böyük imkanlar mövcuddur. Respublikamızın tormaq fondundan səmərli şəkildə istifadə etməklə, ilkin olaraq 10 milyon, gələcəkdə isə 16 milyona qədər əhalini ərzaqla təmin etmək imkanı mövcuddur. Bu halda ölkənin ərzaq ehtiyacları daxili istehsal hesabına ödənmiş olur ki, buda iqtisadiyyat üçün çox böyük əhəmiyyətə malikdir.[6,səh-81]

Aşağıdakı cədvəldə İqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən yaradılmış əlavə dəyərlə tanış olaq:

**Cədvəl 3.**

**İqtisadi fəaliyyət növləri üzrə mikro, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən yaradılmış əlavə dəyər, mln manatla.[4]**

| İqtisadi fəaliyyət növləri | 2022 | 2023 |
|---|---|---|
| Kənd təsərrüfatı, meşə bə balıqçılıq | 490,3 | 565,4 |
| Sənaye | 2160,4 | 3637,4 |
| Tikinti | 1960,6 | 1917,4 |
| Nəqliyyat | 1347,9 | 1604,9 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 1109,7 | 1302,1 |
| İnformasiya və rabitə | 716,1 | 842,6 |
| Daşınmaz əmlakla bağlı əməliyyatlar | 421,2 | 513,9 |
| Təhsil | 596,6 | 703,2 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 326,4 | 395,0 |
| Ticarət | 5146,8 | 5775,6 |
| Digər | 2894,4 | 2929,6 |

Regionlarda kənd təsərrüfatının inkişafı sahələr üzrə aşağıdakı qrafikdə qeyd olunduğu kimi gedir:




**Qrafik 1.Kənd təsərrüfatı məhsullarının istehsal həcmi (mln manatla).[4]**

Qrafikdə qeyd olunuan göstəricilərə baxdıqda regionlarda bu sahələrin inkişaf etdirilməsi böyük əhəmiyyət kəsb edir. Bu sahələrin inkişafına nail olmaq, həm daxili bazarın təmin olunması üçün, həm də xairci bazara satış edib iqtisadiyyatın genişlədirilməsi üçün vacibdir.

**Nəticə**

Aqrar sahibkarlığın inkişafı üçün dövlər tərəfindən göstərilən dəstək və edilən güzəştlər bu sahənin inkişafı üçün əhəmiyyətli dərəcədə təkan verir. Lakin, dövlət dəstəyi ilə yanaşı, sahibkarlarında müasir standartların tələblərinə tam riayət etməsi və innovativ həllərə uyğunlaşması vacibdir. Ölkəmizdə aqrar sahibkarlıq sahələrinin dayanıqlı formada inkişaf etdirilməsi, ölkənin iqtisadi gücünün artırılmasına və kənd təsərrüfatı məhsullarının daxili bazarla yanaşı, xarici bazara çıxmasına gətirib çıxarır.

Bildiyimiz kimi Azərbaycan kifayət qədər əlverişli coğrafi möveyə, iqlim şəraitinə və təbii resuslara malikdir. Bu resusların səmərli istifadəsi ilə böyük nəticələr əldə etmək mümkündür. İqtisadi regionlara nəzər yetirdikdə bu resusların, onların ixtisaslaşıdığı fəaliyyət növlərini görmək olar.

Ölkə ərazisində kənd təsərrüfatının inkişafına mane olan məsələlərdən biri də suvarma sistemlərinin yeni texnologiyalara uyğun olmamasıdır ki, son illərdə müasir tələblərə cavab verən suvarma sistemləri qurularaq bağların, əkin sahələrinin suvarmasında istifadə olunmasına başlanmışdır. Bununla yanaşı müasir tələblərə cavab verən kənd təsərrüfatı texnikalarının ölkəyə gətirilməsi də dövlət üçün başlıca məsələrdəndir. Bu kimi məsələlər həll olduğu halda kənd təsərrüfarı sektoru və bu sektorda sahibkarlıq fəaliyyəti günü-gündən inkişaf edəcəkdir. Dövlət tərəfindən bu sahənin davamı və dayanıqlı inkişaf etdirilməsi, o cümlədən rəqəmsallaşmanın və kənd təsərrüfatı məhsullarının emalının inkişaf etdirilməsi nəticəsində iqtisadiyyatın bu sahəsi daha da inkişaf edəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI

1. E.Məhərrəmov “Aqrar Sahədə sahibkarlıq Fəaliyyətinin Təhlili” Bakı-2019, 160s
2. https://edf.gov.az/ - Azərbaycan Respublikası Sahibkarlığın İnkişaf Fondu
3. M.M.Mahmudov, İ.M.Mahmudova “Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi”, Bakı-2011, 370s
4. www.stat.gov.az - Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
5. E.Quliyev “Aqrar İqtisadiyyat”, Bakı-2015, 322s
6. Ə.Qasımov “Aqrar-sənaye müəssisələrinin iqtisadiyyatı və idarə edilməsi” Bakı-2005,s 355.
7. www.cabmin.gov.az – Nazirlər Kabineti

**Heydar Alirza ALİYEV**
Western Caspian University Master
Email: aliyevheyderr@gamil.com

## DEVELOPMENT OPPORTUNİTİES FOR AGRARİAN ENTREPRENEURSHİP İN THE REGİONS OF THE REPUBLİC OF AZERBAİJAN

**Summary**

The development of agrarian entrepreneurship in the regions of the Republic of Azerbaijan is of great importance in ensuring food security in the country and expanding the country's economy. The development of the agrarian sector in the country creates wide opportunities as a result of extensive land resources, favorable climatic conditions and support provided by the state.

Recently, some incentive mechanisms and state programs have been organized for the development of the agricultural sector in the country. Soft loans, state subsidies, modernization of irrigation systems, application of modern techniques, tax breaks, etc. measures give impetus to the development of this sector. Also, agroparks have been created in the regions, which creates opportunities for more innovative development.

Along with these steps taken, it is necessary to further develop issues such as the application of innovation in this area, further facilitating access to financial resources, and the efficient use of land and water resources.

For the development of this area in the country, it is important to take steps such as the development of digital systems, the application of new technologies, and the expansion of export potential.

**Key words**:Entrepreneurship, Economics, Regulation, Financing, Development

**Гейдар Алирза АЛИЕВ**
Западно-Каспийский университе магистрант
E-mail: aliyevheyderr@gamil.com

## ВОЗМОЖНОСТИ РАЗВИТИЯ АГРАРНОГО ПРЕДПРИНИМАТЕЛЬСТВА В РЕГИОНАХ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Резюме**

Развитие аграрного предпринимательства в регионах Азербайджанской Республики имеет большое значение в обеспечении продовольственной безопасности страны и расширении ее экономики. Развитие аграрного сектора в стране создает широкие возможности благодаря обширным земельным ресурсам, благоприятным климатическим условиям и поддержке государства.

В последнее время в стране были организованы механизмы стимулирования и государственные программы для развития аграрного сектора. Льготные кредиты, государственные субсидии, модернизация ирригационных систем, внедрение современных технологий, налоговые льготы и другие меры являются движущими силами развития этого сектора. Также в регионах созданы агропарки, что создает возможности для более инновационного развития.

Помимо этих шагов, необходимо и далее развивать такие вопросы, как применение инноваций в этой области, дальнейшее облегчение доступа к финансовым ресурсам, эффективное использование земельных и водных ресурсов.

Для развития данного сектора в стране важно предпринять такие шаги, как развитие цифровых систем, внедрение новых технологий, расширение экспортного потенциала и т. д.

**Ключевые слова**: Предпринимательство, Экономика, Регулирование, Финансирование, Развитие